AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU

# DİN ARAŞDIRMALARI JURNALI

№ 1. DEKABR 2018

# NƏCƏF DİNİ-ELMİ MƏRKƏZİNİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

***Samid Bağırov,***
*AMEA Ziya Bünyadov ad. Şərqşünaslıq İnstitutunun*
*elmi işçisi, dissertant*
*sami80@mail.ru*

## XÜLASƏ

İraqın Nəcəf şəhərində yerləşən dini-elmi mərkəz min ilə yaxındır, fəaliyyət göstərir. Şeyxüt-taifə Tusi Nəcəfə köçdükdən sonra bu şəhər bir məzarlıqdan şəhərə çevrildi. Alimin burada dini-elmi mərkəz açaraq, ictihad prosesini sürətləndirən üslublarla tədrisə başlaması digər bölgələrin alimlərini də cəzb etdi. Şeyx Tusidən sonra Nəcəf mərkəzinin elmi inkişafında birəsrlik durğunluq dövrü yaransa da, bu, ibn İdris Hillinin zamanına qədər davam etdi və daha sonra buveyhilərin və səfəvilərin dövlət dəstəyi dini-elmi mərkəzin fəaliyyətini artırdı. XVI əsrdə dini-elmi mərkəzin dərslik mətnləri ərsəyə gəlsə də növbəti durğunluq dövrü yarandı. Bu, Nəcəfdə əxbariliyin yayılması ilə bağlı idi. XVIII əsrdə üsuli alimlər əxbariləri üstələdilər və ictihad prosesini yeni rasional qaydalarla sürətləndirən bir dini-elmi cərəyan yaratdılar.

***Açar sözlər:*** *Nəcəf, dini-elmi mərkəz, Cəfəri fiqhi, şiə, əxbarilik, üsulilik, durğunluq dövrü, ictihad, fətva, Səfəvilər, buveyhilər, Qacarlar, dərslik mətnləri, Şeyx Tusi*

### Giriş

Müxtəlif dini-elmi təsisatların təsiri ilə yaranan ictimai-siyasi cərəyanlara şahidlik edən Yaxın Şərq, həmçinin fərqli fikir düşüncələrinin məskəni olub. Təşəkkül tapdığı mərhələdən Nəcəf dini-elmi mərkəzinin (Həuzətun-Nəcəf) müzakirə obyektinə çevrilməsi onun şiə qurumları arasında ən qədimi olması, şiə dini inancının formalaşdığı məkan sayılması, Yaxın Şərqin ən qaynar ölkəsi kimi xarakterizə edilən İraqda yerləşməsi, İran və Səudiyyə Ərəbistanı rəqabəti cəbhəsinin önündə yer alması və digər amillərlə bağlıdır. Şiə din alimlərinin fərqli düşüncələrə malik nümayəndələrinin min illərdir bu ərazidə toplaşmaları və dini tədrisin burada mərkəzləşməsi Nəcəf dini-elmi mərkəzini həmişə müzakirə obyektinə çevirib.

Din alimlərinin XI əsrdən başlayaraq, Nəcəfə köç etmələri qısa zaman kəsiyində bu məzarlığı böyük şəhərə və şiə inancının nəzəri əsaslarının formalaşdığı elm mərkəzinə çevirdi. Abbasilər xilafəti (750-1258) dönəmində ictimai fikir cərəyanlarında rolu olan bu elmi-dini mərkəz Osmanlılar (1299-1922) zamanında fəallığını sürətlə artırdı. Nəcəf dini elmi mərkəzinin şöhrəti XIX əsrin ortalarından

artmağa başlayaraq, müctəhid Mirzə Şirazinin (1814-1896) verdiyi fətvalar dönəmində daha da genişlənib İraqa, İrana və Yaxın Şərqin digər bölgələrinə nüfuz etdi.

Britaniya müstəmləkəçiliyi dövründə, İraqın müstəqilliyinin əldə olunması, krallığın yaranması (1921), krallığın devrilməsi və İraq Respublikasının yaranması (1958), daha sonra BƏƏS partiyasının (1968-2003) hakimiyyəti dönəmlərində də Nəcəf dini-elmi mərkəzi ölkənin və bölgənin fikri-ictimai səhnələrində mühüm rola malik olub.

Qeyd edək ki, Azərbaycanın bir çox din xadimləri Sovet İttifaqından öncə məhz Nəcəf dini-elmi mərkəzinin məzunları olub. Müstəqillik əldə etdikdən sonra da bu ənənə davam etdirilib ki, sözügedən tendensiya araşdırma mövzusunun aktuallığının daha bir zəruri tərəfini ortaya çıxarır.

**Nəcəf dini-elmi mərkəzinin təsis olunması**

Nəcəf dini-elmi mərkəzinin 900 ildən artıq yaranma tarixi vardır. Belə ki, bu dini-elmi ocaq şiəliyin ilk institutu hesab edilir. Nəcəf dini elm ocağının banisi Şeyx Tusi (995-1067) ləqəbli əbu-Cəfər Məhəmməd ibn Həsəndir ki (Muhsin Əmin 1421 h.q, c-9, s-159), o, xidmətlərinə görə Şeyxut-taifə (məzhəbin şeyxi) ləqəbinə layiq görülüb.

Mütəfəkkir təhsilini davam etdirmək üçün 1018-ci ildə Bağdada köçür və burada müctəhidlik dərəcəsi qazanmış olur. Tusi "Təhzibul-Əhkam" əsərini yazdıqdan sonra məzhəbin vacib şəxslərindən birinə çevrilir. Tədqiqatçı alimin "əl-İstibsar fima uxtulifə minəl-əxbar", "Təhzibul-Əhkam" əsərləri şiə məzhəbinin hədis sahəsində "əl-Kutub əl-Ərbəə" deyilən 4 təməl kitabı arasındadır. Tusinin əsərlərinin ümumi sayı 50-dən çoxdur. Şeyx hədis ilə yanaşı, fiqh, üsul, təfsir, rical və kəlam elmləri sahəsində də böyük alimlədən hesab olunurdu. 1055-ci ildə Səlcuq sultanı Toğrul bəy (987-1063) Bağdada hücum etdikdə, şəhər münaqişələr ilə çalxalanırdı. Münaqişələrin yaşandığı şəhərdə Şeyx Tusinin kitabxanasındakı kitablar bir neçə dəfə şəhər meydanına daşınaraq yandırıldı. 1057-1058-ci illərdə Tusinin evi qarət edildi və zəngin yaradıcılığını yaşadan bütün əsərləri yandırıldı. Bütün baş verən olaylardan sonra, Şeyx Tusi Bağdad şəhərindən getmək qərarına gəlib Nəcəfə köçdü. Ömrünün qalan hissəsini Nəcəfdə islam elmlərini tədris etməklə keçirən alim burada indiyədək fəaliyyət göstərən böyüktədris müəssisəsinin əsasını qoymuş oldu. Şeyxin 300-dən artıq şagirdi olmuşdur ki, onlardan hər biri islam, İraq və ərəb tarixində elmi uğurları ilə mühüm izlər buraxıblar.

Şeyx Tusinin 1058-ci ildə Nəcəfə köçməsi ilə başlanan tendensiya dövrünün digər məşhur alimlərinin də ora axınına rəvac verdi. Şeyx Tusinin Nəcəfə köç etməsini bu şəhərin tarixində ən əhəmiyyətli dönəm hesab etmək mümkündür.

Tarixin bu mərhələsindən sonra, məzarlığı xatırladan Nəcəf şəhər halına gəldi. Sözügedən məkan, əsasən, Həzrət Əlinin (598-661) məzarının yerləşdiyi ərazi kimi də tanınırdı. Nəcəf şəhərinin tarixi qaynaqları məskunlaşma bölgəsi olaraq cahiliyyət dövrünə və burada yerləşən bir sıra xristian kilsələrinə qədər gedib çıxsa da, onun

yaşayış ərazisi kimi formalaşması Həzrət Əli tərəfindən yaxınlıqdakı Kufənin xilafətin mərkəzi elan edilməsindən sonra baş verib.

"Nəcəf" sözünün hərfi tərcüməsi (əl-Məncuf) – "suyun qalxmadığı ərazi" anlamındadır (İbn Faris 1366 h.q, c. 5, 395,). Yaşı yüzillərlə ölçülən Kufə və Səhla məscidlərinin, məşhur tarixi abidələrin və dünyanın ən böyük məzarlığı sayılan Vadius-Səlamın burada bərqərar olması zaman keçdikcə bu şəhəri daha çox tanıtmağa başlayıb. 2012-ci ildə Nəcəf şəhəri İslam Mədəniyyət Paytaxtı adına layiq görülüb. Həzrət Əlinin məzarının, eləcə də şiə dini tədris mərkəzlərindən birinin burada yerləşməsi onu müstəsna şəhər edib.

Tusi Nəcəfə köçməmişdən burada din alimlərinin fəaliyyəti, demək olar, hiss olunmayacaq dərəcədə idi. Əhməd ibn Əli Nəcaşi, rical elmi üzrə tanınmış alim (372-450 h.q) bildirir ki, hicri-qəməri təqvimi ilə 400-cü illər civarında Kufədə çoxsaylı fəqihlərlə görüşüb və onların fəaliyyətinin şahidi olub (Nəcaşi 1407 h.q, 68). Müqayisə olaraq bildirək ki, Həzrət Əlinin məqbərəsinə görə Tusidən öncə burada bəzi fəqihlər məskən salsalar da, bu, şəhəri dini-elmi mərkəz kimi tanıda bilməmişdi.

Şeyx Tusi Nəcəfdə tədrisi bərpa etməklə yanaşı, fiqhi mövzuların tədrisində yeni üsluba təkan verdi. Alimin israrla tətbiq etdiyi yeni üslub şəriət hökmlərini açıqlamağa və fətvalar verməyə yönəlməklə yanaşı, həm də onların sübutunu ortaya qoymaqdan ibarət idi. Bu üslub üzərində son dərəcə təkid edən mütəfəkkir sonda "əl-Məbsut" adlı bir kitabı məhz bu üslub əsasında ərsəyə gətirdi.

Buveyhilər sülaləsinin (935-1055) hakimiyyətə gəlməsi Nəcəf dini-elmi mərkəzinin inkişafının əsas səbəblərindən biri oldu. Buveyhi hökmdarları Nəcəfdə və sair bölgələrdə ənənəvi şəkildə şiə dini-elmi ocaqlarına yardım göstərir, fəqihlərə müxtəlif sahələrdə dəstək verirdilər. Sülalənin hökmdarı İzzud-Dövlə Bəxtiyar əl-Buveyhinin (966-978) Nəcəfi ziyarət edən zaman şəhərdəki fəqihlərlə görüş keçirmələrini, onlara və şəhər yoxsullarına ianələr paylamasını nümunə gətirmək mümkündür. Aşura gününün rəsmi şəkildə matəm, Qədir-Xum bayramının isə dövlət səviyyəsində elan edilməsi də Buveyhi hökmdarları tərəfindən həyata keçirilməyə başlayıb (ibn Xəldun 1391 h.q, c. 3, 425).

Qeyd etmək lazımdır ki, tarixi ardıcıllıq baxımından, birinci mərhələdə Buveyhilərin dəstəyi, ikinci mərhələdə isə Şeyx Tusinin təşəbbüsləri Nəsəf dini-elmi mərkəzinin inkişafına təkan verən əsas amillərdən idi.

## Durğunluq dövrü

Nəcəf mərkəzinin elmi inkişafında Şeyx Tusidən sonra birəsrlik durğunluq dövrü yarandı. Bu proses Məhəmməd ibn İdris Hillinin (1148-1201) zamanına qədər davam etdi ki, sözügedən durğunluğun bir neçə səbəbi olub:

1. Şeyx Tusi üsul və fiqh elmlərində yeni və yaradıcı metodlar, bəhslər və istidlallar ortaya qoymuşdur. Ondan sonra yaşayıb-yaratmış fəqihlər isə yalnız bu metodlardan istifadə etməyi və irad tutmamağı özlərinə borc bilirdilər.

XVI yüzilliyin tanınmış fiqh alimi Şəhid Sani ləqəbli Zeynuddin bin Nuriddin Amili (1505-1559) bildirir ki, bütün fəqihlər onun dediklərini yalnız nəql edir, özlərindən yeni fikir irəli sürmürdülər (Şəhid Sani 1381 h.ş., 93).

2. Nəcəfdəki dini-elmi mərkəz gənc bir institut olduğundan, Bağdad məktəbi qarşısında yeni iddialarla çıxış edə bilmirdi.

3. Nəcəfdə Şeyx Tusidən sonra yaranan birəsrlik durğunluğun səbəblərindən biri də Buveyhi hökmdarları və sülalənin zəifləməsi idi. Bundan sonra başlanan səlcuqların təzyiqi də Nəcəf dini-elmi mərkəzinin durğunluğuna gətirdi.

Hillə şəhəri ibn-İdris Hilli ilə birlikdə elmi mərkəz olmağa başladı. Alimin bu şəhərdə təsis etdiyi Hillə dini-elmi mərkəzi müəyyən qədər Nəcəfi kölgədə saxladı və burada müvəqqəti durğunluğa səbəb oldu.

İbn-İdris Hilli öncəki Cəfəri fəqihlərinə qeydsiz-şərtsiz itaət etməyə son qoydu. O, Şeyx Tusinin fikirlərinə və baxışlarına irad bildirməklə, məzhəbin elmi mərkəzlərində tədqiqə və araşdırma ruhiyyəsinə yeni nəfəs gətirdi. İbn-İdris Hillinin bu metodu sonda müxtəlif dini-elmi mərkəzlər arasında rəqabətə və nəticə etibarı ilə inkişafa yol açdı.

Səfəvilərdən öncə Elxanilər (1256-1265) və Cəlairilər (1336-1432) siyasi məqsədlər naminə sünni Bağdad məktəbi qarşısında şiə Nəcəf məktəbinin üstünlük qazanmasında maraqlı idilər və bu istiqamətdə dəstək də verirdilər (Fəqih 1996, s.125). Göstərilən dəstəklər Nəcəfin dini-elmi mərkəzini Bağdadla rəqabətə girmə müstəvisinə gətirib çıxara bilmirdi. Bu dönəmdə Şeyx Tusinin oğlu Əbu Əli Tusi, ibn Şəhr Aşub, Əbu Əli əl-Fəzl ibnil-Həsən ət-Təbərsi, Şeyx Əbulvəfa Abdulcabbar ər-Razi, Həsən ibn Babəveyh əl-Qummi, Məhəmməd ibn Hibətullah ət-Tarablusi, Rəziyəddin Əstərabadi, Əbdürrəhman ibn Ətaiqi, Fazil Miqdad kimi dövrün tanınmış alimləri Nəcəf dini elmi-mərkəzinin inkişafına və fəal olaraq öz sözünü deməsinə töhfələrini veriblər.

Nəcəf dini-elmi mərkəzinin sonrakı inkişaf dövrü Səfəvilər dövlətinin (1501-1736) hakimiyyəti illərinə təsadüf edir ki, sözügedən dönəmdə elmi fəallıq yenidən Nəcəfə qayıtdı. Səfəvi şahları Nəcəf şəhərinin suvarma və içməli su ilə təmin olunması üçün kanallar qazdırdılar, digər zəruri ehtiyaclarının ödənilməsi məqsədilə bir sıra işlərə rəvac verib, şəhər sakinlərinin təhlükəsizliyi üçün möhkəm qalalar tikdirdilər (İsa Məcid 1410 h.q., 27).

Bu mərhələdə Nəcəfin elmi inkişafı təkcə Səfəvilərin dəstəyindən qaynaqlanmırdı. Burada, həm də bir sıra amillər mövcud idi. Dini-elmi mərkəzdə inkişafa səbəb olan mühərrik kimi, Mühəqqiq Ərdəbilini (v.i 1585) misal gətirmək mümkündür. O, Səfəvilərin dəstəyindən geniş istifadə edərək, Nəcəf mərkəzini elmi yaradıcılığı ilə rövnəqləndirmişdi. Mühəqqiq Ərdəbili şiə bölgələrində 10 il rəqibsiz müctəhid olaraq qaldı. Alim Şah Abbas Səfəvi (1588-1629) ilə eyni zamanda yaşayırdı. O, Nəcəfi tərk edib, İrana gəlməsi təklifi ilə ona müraciət edən Şah Abbasın istəyini qəbul etməsə də, müxtəlif zamanlarda bölgələrlə bağlı şah sarayına məktublar yazır, onunla əlaqə saxlayırdı (Hürri Amili 1428, c.2,2).

“Rical” alimi Məhəmməd Hirzuddin (1857-1946) Mühəqqiq Ərdəbilinin Nəcəf alimlərindən birinin ehtiyacının aradan qaldırılması haqqında I Şah Təhmasibə

(1514-1576) məktub yazdığını bildirir. O vurğulayır ki, Ərdəbili bu məktubda şahı "dost" və "qardaş" deyə adlandırır. Təhmasib məktubu oxuduqdan sonra həmin alimə yardım göstərir və vəsiyyət edir ki, öldükdən sonra Ərdəbilinin məktubunu onun başı altına qoysunlar (Məhəmməd Hirzuddin 1405 h.q., c. 2, 55).

Ərdəbilinin yeni ictihad qaydalarını qəbul etməsi dini-elmi mərkəzin fəaliyyətinin artmasının səbəblərindən biri olaraq göstərilə bilər.Onun fiqhi üslubu hədəf olaraq hədislərin hərtərəfli araşdırılmasını nəzərdə tutur, məşhur fətvaların qarşısında dayanan "səhih" hədisləri əhəmiyyətsiz hesab etmir, beləcə, fiqh-üsul elmində yeni rəqabət mühitinin yaranmasına səbəb olmuşdur.

## Nəcəf dini elmi mərkəzində dərslik mətnlərinin araya-ərsəyə gətirilməsi

XVI əsrin ortalarından başlayaraq dini-elmi mərkəzin dərslik mətnləri ərsəyə gəlməyə başlandı. 500 il keçməsinə baxmayaraq, bu dərsliklər hələ də Nəcəfdə və müxtəlif ölkələrin dini-təhsil ocaqlarında tədris edilir. Sözügedən əsərlərdən biri fiqh və üsul elmini tədqiq edən əl-Məalim kimi tanınan "Məalimud-din və Məlazul-Müctəhidin" əsəridir. Əsərin müəllifi olan Həsən ibni Zinuddin (1552-1603) də elə Mühəqqiq Ərdəbili məktəbinin yetişdirməsidir.

Hazırda Nəcəfdə və digər dini təhsil ocaqlarında fiqh və üsul elmləri üzrə əsas dərsliklərdən biri kimi istifadə edilən "Ər-Rəudətul-Bəhiyyə fi şərhi əl-Lumətut-Dəməşqiyyə" əsəri də bu dövrdə ərsəyə gəlib. Qeyd edək ki, bu qiymətli əsərin müəllifi də Həsən ibn Zeynuddinin atası və Mühəqqiq Ərdəbili ilə eyni dövrdə yaşamış Şəhid Sani ləqəbli Zeynuddin ibn Nuriddin Əli bin Əhməd Amili Cubəidir (1505-1559).

## İkinci durğunluq dövrü

Nəcəf dini-elmi mərkəzinin növbəti mərhələsi o qədər də ürəkaçan deyildi. Bu ikinci durğunluq dövrünə səbəb, Nəcəf hövzəsi də daxil olmaqla, digər şiə dini-elmi mərkəzlərində əxbariliyin yayılması və intişarı ilə bağlı idi. Hicri-qəməri tarixi ilə XI əsrin ortalarında əxbariliklə üsuliliyin mübarizəsi Nəcəfi də əhatə etməyə başladı ki, Məhəmməd Əmin Əstərabadi (v.i 1626) əxbariliyin əsas bayraqdarı idi. O, "əl-Fəvaidul-Mədəniyyə" əsərini yazmaqla öncə cərgələrində olduğu və dəstək aldığı üsuli alimləri və onların elmi üslublarını tənqid atəşinə tutdu. Alim Şeyx Tusini, Şeyx Mufid (v.i. 950), Seyid Mürtəza (v.i. 1044), ibn Cüneyd İskafi (d.i. 903) və Əllamə Hilli (1251-1326) kimi fəqihləri imamların yolundan çıxmaqda günahlandırırdı.

Əstərabadi rasional üslubla araşdırılan üsul və kəlam elminin fikirlərini batil bilir və onları bidət adlandırırdı. Əxbarilik məktəbi sürətlə Nəcəfə, İraqın digər elmi-dini mərkəzlərinə, İrana və Bəhreynə nüfuz etməyə başladı və daha çox fəqihləri özünə cəlb etdi.

Tarixin bu dönəmində üsulçuların fəaliyyəti və rasional qaydalardan bəhs edən üsuli-fiqh elmi tamamilə aradan qalxmasa da, əxbarilərin yaradıcılığının kölgəsində qalmışdı.

Səfəvilərlə-osmanlıların intensiv qarşıdurması, osmanlıların İraqı ələ keçirməsi, bəzi bölgələrdən İraqa mühacirət etmək xofunun insanların düşüncələrində hakim olması, şiə alimlərinə təzyiqlər, İraqda vəba xəstəliyinin yayılması – Nəcəf hövzəsinin durğunluğuna səbəb olan digər amillər idi (İsa Məcid 1410 h.q., 27).

Sadalanan faktorlar nəticəsində, hicri-qəməri tarixinin XI yüzilliyin sonuna qədər elm əhlinin Nəcəfə yönəlməsi azaldı və müvəqqəti olaraq şiə dini-elmi mərkəzi Kərbəlaya köçdü (Fəqih 1996, c. 6, 134).

Nəcəf dini təhsil ocağının durğunluğuna səbəb olmuş əxbarilik cərəyanı ilə mübarizədə tanınmış fəqih və müctəhid Vəhid Bəhbəhani (1706-1791) daha fəal rol oynadı. O, əxbarilərə cavab olaraq, ilk əsərini – "Kitabul-İctihad vəl-Əxbar"ı yazdı. Alim daha sonra əxbarilərin çox olduğu Kərbəlaya getdi, mötədil əxbarilərdən olan ustadı Şeyx Yusif Bəhbəhaninin (1695-1772) tələbələrinə dərs deməyə başladı. Üç gün müddətində Bəhbəhani tələbələrin üçdəikisini əxbarilikdən üsuliyə döndərdi. Bəhbəhani 17 il Kərbəlada qalıb əxbariliklə mübarizə apardı və sonda əxbarilərin təsirini zəiflədə bildi (Tehrani 1982, c.16, 230).

Əxbarilik Nəcəfdə gedən yaradıcılıq fəaliyyətlərinə, üsul, fəlsəfə və məntiq kimi elmlərlə məşğul olanlara qarşı ciddi və təhlükəli ittihamların irəli sürülməsi ilə nəticələnmişdi. Mazandarani Hairi yazır ki, Bəhrəhanidən öncə Nəcəf və İraq əxbarilərlə zəngin idi. Qeyd edək ki, bu şəhərdə üsulçu və ictihad tərəfdarı olan birisi alimin kitabını əlinə götürsəydi, o insanı nəcis hesab edər, ələ dəyməsin deyə həmin kitabı dəsmalla götürərdilər (Hairi Mazandarani 1416 h.q, c. 6, 178).

### Çiçəklənmə dövrü

Nəcəf dini-elmi mərkəzi üçün intibah dövrü sonrakı mərhələnin başlanması oldu. Hicri-qəməri təqvimi ilə XIII əsrin ortalarından başlayan bu dövr hazırkı dönəmədək davam edir. Bu dövr Nəcəf dini təhsil ocağının yenidən elmi mərkəz kimi önə çıxdığı zamana çevrildi. Bunun səbəbi Bəhbəhanidən sonra onun şagirdi Bəhrul-Ülumun (1155-1252 h.q.) və onların vasitəsilə təlim-tərbiyə almış fəqihlərin səyi ilə baş tutdu.

Daha sonra "Kaşiful-ğita" ləqəbli Şeyx Cəfər ibn Xızır Nəcəfi (1743-1812) öz zəngin fəaliyyəti ilə şiə dini təhsil ocaqlarının tarixində iz buraxdı. Alim əxbariliyin və sələfi təriqətinin tənqidi haqqında əhəmiyyətli əsərlər yazdı. Siyasi-ictimai nüfuzu olan bu alimin səyi nəticəsində Nəcəf daha da inkişaf edirdi ki, bu da Qacarlar (1796-1925) hakimiyyəti dövrünə təsadüf edirdi. Tədqiqatçı alim Tehranda Fətəli Şah Qacarla (1772-1834) görüşdü və şəxsən "Kəşful-ğita ən mubhəmatiş-şəriətil-ğərra" əsərini şaha təqdim etdi. Ruslarla-Qacarların müharibəsi başladıqda onun cihad fətvası xüsusi rol oynadı. Şeyx Cəfər ibn Xızır Nəcəfi fətva verməklə zəkatları ordunun toplaması, əsgərlərin səfərbər edilməsi zəminində xərclənməsinə icazə verirdi. Onun ən məşhur fətvası İranla-Çar Rusiyasının ilk döyüşü zamanına təsadüf

edir. Kaşiful-ğita bu fətvada İran, İraq, Azərbaycan və Xorasan xalqlarını cihada səsləmişdi.

Öz dövründə Nəcəf dini təhsil ocağının əsas müctəhidi olan Kaşiful-ğita İranla-Osmanlı İmperiyasının münasibətlərində böyük etibar və etimadla qarşılanırdı. Onun tövsiyələri bəzən iki ölkə ixtilafının aradan qaldırılmasında əhəmiyyət kəsb edirdi (Muhsin1421 h.q., c. 4, 102). Kaşiful-ğitadan öncə heç bir müctəhid və fəqih ictimai-siyasi mövqe və nüfuz baxımından bu qədər güclü təsirə malik olmamışdır. Nəcəfin intibahı dövründə Kaşiful-ğita ilə yanaşı, bu mərkəzin Məhəmməd Təqi İsfahani, Məhəmməd Hüseyn İsfahani, Məhəmməd Mücahid Təbatəbai, Məhəmməd İbrahim Kəlbasi, Şeyx Mürtəza Ənsari və başqa alimləri də səy göstərmişlər.

Yuxarıda adı keçən Şeyx Mürtəza Ənsari (1781-1864) öz elmi yaradıcılığı ilə Nəcəf dini-elmi mərkəzinin inkişafında xüsusi rola malik olub. O, Sahib-Cəvahir ləqəbli müctəhid Məhəmməd Həsən Nəcəfidən (1787-1850) sonra Nəcəfdə və bütün şiə bölgələrində mərcəiyyətə (ali müctəhidlik dərəcəsi) nail olmuşdur. Şeyx Ənsarinin 40-a yaxın eimi əsəri vardır ki, onlar arasında ticarət və müxtəlif müqavilə növləri barədə yazılan "əl-Məkasib əl-Muhərrəmə", həmçinin üsuli-fiqh elmi əsasında qələmə aldığı "Rəsail" əsəri Nəcəf təhsil ocağı da daxil olmaqla, bütün şiə dini elmi mərkəzlərinin təməl tədris mətnlərindəndir.

### Nəcəf dini-təhsil ocağının transmilli fəaliyyəti

Nəcəf dini təhsil ocağını Şeyx Ənsaridən sonra tərəqqiyə aparan Axund Xorasani ləqəbli Molla Məhəmməd Kazim Xorasani (1839-1911) olmuşdur. O, Nəcəflə yanaşı, Qumda, İsfahanda və digər elmi-dini mərkəzlərdə də mühüm təsir bağışlamışdır. Alimin "Kifayətul-Üsul" əsəri bu yöndə yazılan ən tanınmış və geniş istifadə edilən əsərdir. Hazırda da "Kifayətul-Üsul" dini-elmi təhsil müəssisələrində dərslik mətni kimi ən yuxarı pillələrdə tədris olunur.

Kaşiful-ğita kimi Axund Xorasani də İranın və İraqın siyasi-ictimai məsələləri haqqında dəyərli fikirlər bildirər, dövrünün hakimiyyət dairələri ilə yazışar, tövsiyələrini verərdi. Səfəvilər dövründə Nəcəf fəqihləri ilə hakimiyyətin münasibətləri sırf tövsiyə və dəstək xarakterli idisə, Qacarlar dönəmində, həmçinin İraqın Britaniya və Osmanlı nəzarətindəki mərhələsində fəqihlərin münasibətində xəbərdarlıq mesajları da görünürdü.

Axund Xorasani Nəcəf dini-elmi mərkəzinə, fəqihlərə və müqəllidlərinə arxalanaraq, İranda Məşrutə zamanı Qacar şahlarına qarşı baş tutan hərəkatlarda mühüm rol oynadı. Məşrutənin qələbəsindən sonra, rus hərbçiləri İranı hələ də tərk etməmişdilər. Axund Xorasani İran xalqına məktub ünvanlayaraq, orada rusistehsallı əmtəələrin alınmasının haram olduğunu bildirmişdir. Ruslar Qəzvinə girdikdən sonra, Axund Xorasani bütün şəhərlərdə, o cümlədən Nəcəfdə dərslərin dayandırılması və ruslara qarşı cihada qalxmaq barədə fətva vermişdi. Nəcəf, Kərbəla və Kazimeyn alimlərinin əksəriyyəti cihad üçün İrana səfərə hazırlaşanda Axund Xorasanı vəfat etdi (Kifai 1386 h.ş., 414).

Xorasanidən sonra Nəcəf elmi-dini mərkəzinin fəaliyyəti Mirzə Məhəmməd Həsən Şirazi (1814-1896) kimi müctəhidlər vasitəsilə davam etdirildi. Axunddan və Ənsaridən sonra Mirzə Şirazi şiə bölgələrinin mütləq müctəhidi hesab edilirdi. O, Nəcəf dini təhsil ocağı üçün bir sıra bölgələrdə, həmçinin İsfahan və Samirədə filial təsis etməklə yanaşı, Rusiya çarının işğalçı siyasəti və Britaniya müstəmləkəçiliyinə qarşı bir sıra əhəmiyyətli addımları ilə də tanınır. Onun tütün istehlakının haram olduğu ilə bağlı verdiyi fətva Nəsrəddin Şah Qacarın (1848-1896) zamanında İranın Britaniya şirkətləri ilə əldə edilən inhisarçı anlaşmanın ləğv edilməsinə səbəb oldu.

## Nəticə

Nəcəf dini-elmi mərkəzinin tarixinin araşdırılması nəticəsində məlum olmuşdur ki, sözügedən bilik ocağı son minillikdə yüksələn inkişaf xətti ilə irəliləyib. Bu inkişaf tempi həm onun təsir dairəsi baxımından, həm də elmi, dini və praktiki üslubların mənimsənilməsi və təcrübədən keçirilməsi baxımından açıq-aydın nəzərə çarpır.

Cəfəri din alimlərinin əksəriyyətinin hazırlandığı bu mərkəz müəyyən mərhələlərdə elmi məsələlərdə təqliddən əziyyət çəksə də, növbəti mərhələlərdəazad araşdırma məqsədini həyata keçirə bilib. Nəcəf dini elmi mərkəzi müəyyən bir dönəmdə əxbariliklə üzləşsə də, sonradan rasional üslublara yiyələnərək, durğunluqdan qurtara bilib. Orta əsrlərin bəzi mərhələlərində müxtəlif təzyiqlərə məruz qalan bu mərkəz XIX əsrdən başlayaraq İraq və İran sərhədlərini aşaraq, trans-milli elmi-dini mərkəz olduğunu sübut etməyi bacarıb.

## ƏDƏBİYYAT

1. Amili Hürri, “*Əməlul-amil fi uləma Cəbəl-amil”*. “Məktəbət-Əndəlus”, Bağdad. 1428 h.q.

2. Fəqih Məhəmməd Cavad, *Mousuət ən-Nəcəf əl-Əşrəf*, “*Dour-əs-Sani lil-Camiətin-Nəcəfiyyə”*. “Darul-Ədva”, Beyrut, 1996

3. Hairi Məhəmməd ibn İsmail Mazandarani, “*Muntəhəl-məqal fi əhvalir-rical”*. “Müəssəsət Alul-Beyt”, Qum, 1416 h.q.

4. İsa Əhməd Məcid, “*əd-Dirasə fin-Nəcəf”*. “əl-Bəyan jurnalı”, 27-ci say. Beyrut, 1410 h.q.

5. İbni-Xəldun, “*Tarix İbni-Xəldun”*. “Dar ihya ət-turas əl-ərəbi”. Beyrut, 1391 h.q.

6. İbni-Faris bin Zəkəriyya, “*Mucəm məqayisul-lüğət”*. “Mustafa əl-Babi əl-Hələbi mətbəəsi”. Qahirə, 1366 h.q.

7. Kifai Abdur-Riza, "*Şərh və bəyani müxtəsər əz-həyat və şəxsiyyəte-Axund Xorasani*, *"Moəsseseye təhqiqat və toseeye ulume ensani"* nəşriyyatı, Tehran, 1386 h.ş.

8. Məhəmməd Hirzuddin, "*Məarifur-rical fi təracim əl-üləma vəl-üdəba"*. "Mərəşi-Nəcəfi" nəşriyyatı, Qum, 1405 h.q.

9. Muhsin Seyid Əmin, "*Əyanuş-Şiə"*. "Dar ət-Təaruf" mətbəəsi, Beyrut, 1421 h.q.

10. Nəcaşi Əhməd bin Əli, "*Fihrist əsma musənnifi əş-şiə"*. "Musa Şubeyri Zəncani" mətbəəsi. Qum, 1407 h.q.

11. Şəhid Sani Zinuddin bin Əli, "*ər-Riayə fi elmid-dirayə"*. "Bustane Ketab". Qum, 1381 h.ş.

12. Tehrani Ağa Bozorg, "*əz-Zəriə ila təsanifiş-şiə"*. "Darul-Ədva". Beyrut, 1982

***Самид Багиров***

## ЭТАПЫ ИСТОРИЧЕСКОГО РАЗВИТИЯ НАУЧНО-РЕЛИГИОЗНЫЙ ЦЕНТРА НАДЖАФ


## РЕЗЮМЕ

Научно-религиозный центр, располагающийся в городе Наджаф в Ираке, действует уже более тысячи лет. После того, как Шейхут-Таифа ат-Туси переехал в Наджаф, этот город из аллеи захоронения превратился в цветущий город. Открыв здесь научно-религиозный центр, и начав учебу с ускорившими процесс иджтихада методами, ученый привлек ученых и с других регионов. Вековой период застоя, образовавшийся в научном развитии города Наджаф после шейха Туси, продолжился лишь до времени Ибни Идриса Хилли, затем государственная поддержка Бувейхидов и Сефевидов еще больше расширила деятельность научно-религиозного центра. Начиная с XVI века были сформированы учебные тексты научно-религиозного центра, но, тем не менее, там начался очередной этап застоя. Это было связано с распространением ахбаритства в Наджафе. В XVIII веке усулитские ученые превзошли ахбаритов и создали научно-религиозное учение, ускорившее процесс иджтихада, новыми рациональными правилами.


***Ключевые слова:*** *Наджаф, научно-религиозный центр, джафаритский фикх, шиа, ахбариты, усулиты, период застоя, иджтихад, фетва, бувейхиды, сафевиды, каджары, учебные тексты, шейх Туси*

***Samid Baghirov***

## HISTORICAL DEVELOPMENT STAGESOF THE SCHOLARLY AND RELIGIOUS CENTER NAJAF


## ABSTRACT

The history of scholarly and religious center in Iraqi city of Najaf dates back to thousand years. The city rose to its florescence after Sheykhut-Taifa at-Tusito Najaf's arrival. He started a scholarly and religious center here and accelerated *ijtihad* process with the methods of teaching which attracted the scholars from other regions.The center faced hundrd years of stagnation after Sheikh Tusi until the time of Ibni Idriss Hilli, later, the state support for the Buwayhids and Safavids expanded the activities of the center. The educational texts of the center were developed in the 16$^{th}$century, however, it experienced another stage of stagnation. This was due to the

proliferation of Akhbaris in Najaf. In the 18th century, the Usuli scholars surpassed the Akhbaris and created a scholarly and religious doctrine that accelerated the process of *ijtihad* with new rational rules.

***Keywords:*** *Najaf, scholarly and religious center, Jafari fiqh, shia, Akhbaris, usulis, stagnation period, ijtihad, fatwa, Safavids, Buwayhids, Gajars, educational texts, Sheikh Tusi*

**Çapa tövsiyə etdi: f.e.d. Ə.M.Məlikov**